Bank Respublika
sizə faydalı

**“Bank Respublika” ASC “Şəki, Qax, Bərdə bölgələrində problemli kreditlər üzrə mütəxəssis” vəzifəsi üzrə vakansiya elan edir.**

**Ümumi vəzifə öhdəlikləri:**

- Təhkim edildiyi filialların problemli kreditləri üzrə işi təşkil etmək;
- Problemli müştərilərlə işləmək, ödənişlərin yığılması, öz öhdəliklərini yerinə yetirməyən müştərilərin əvəzindən ödəniş etmələri məqsədilə müştərinin zəmanətçiləri ilə görüşlər
- Borcu qaytarmayan müştərilərin mülkiyyətində olan əmlak barədə zəruri informasiya əldə etmə məqsədilə müvafiq dövlət orqanlarına sorğu göndərmək;
- Tələb olunan formada borcların yığılması, cari borclu müştərilər barədə məlumatlar və borcların yığılmasının nəticələrinə dair problemli kreditlərin yığımına rəhbərlik edən məsul şəxsə hesabatlar vermək;
- Borcların yığılması və hüquqi problemlərin həll edilməsinin effektiv yollarinin tapılması və təmin edilməsi məqsədilə birbaşa rəhbərinə və problemli kreditlər yığımına rəhbərlik edən şəxsə yardımçı olmaq, cari sistem, prosedur və siyasətlərlə bağlı təkmilləşdirmə barədə təkliflər vermək.

**Namizədə qarşı tələblər:**

- Ali təhsil;
- Borcların yığılması və problemli müştərilərlə işləmək sahəsində iş təcrübəsi;
- Kreditləşmə, maliyyə və hüquq sahəsində təcrübəsi olanlara üstünlük verilir;
- MS Office proqramları ilə əla səviyyədə işləmək qabiliyyəti;
- Üzərinə məsuliyyət götürmək, müstəqil işləmək bacarığı və istəyi, habelə yüksək dürüstlük keyfiyyətləri.

**Sizə nə təklif edirik?**

- Əlverişli iş mühitində çalışmaq imkanı;
- Karyera və inkişaf perspektivləri.

Göstərilən tələblərə cavab verən namizədlər öz CV-lərini email-in mövzu hissəsində **“Şəki, Qax, Bərdə bölgələrində problemli kreditlər üzrə mütəxəssis”** qeyd edərək **HR@bankrespublika.az** elektron ünvanına göndərə bilərlər.

- Müraciət etmədən öncə vakansiya üçün vacib dəyərləndiriləcək tələblərlə tanış olun və müsahibə zamanı bu tələbləri nümayiş etdirə biləcəyinizə əmin olun;
- Həmçinin bildirmək istərdik ki, işəqəbul prosesinin növbəti mərhələsi üçün yalnız seçilmiş namizədlərlə əlaqə saxlanılacaqdır.